Ədəbiyyat QƏZETİ

# Kamil qələm sahibi

"Ədəbiyyat və incəsənət" qəzetində işə başlayarkən IV kursda oxuyurdum, 21 yaşım vardı. Qəzetdəki işim sayəsində Azərbaycanın təkcə ədəbiyyat xadimləri ilə deyil, tanınmış alimləri, kino, teatr, mədəniyyət işçiləri, bəstəkar və rəssamlarıyla da görüşürdüm. Yəni ağsaqqallı-qarasaqqallı bütün ədəbiyyat və mədəniyyət ünlüləri ilə əlaqəm vardı. Müxtəlif şöbələrinə rəhbərlik etdiyim qəzetimizdəki iş yoldaşlarımın arasında da Azərbaycanın böyük şairləri, yazıçıları, sənət adamları az deyildi və xatirəmdə hərəsinin öz yeri qalıb.

Bu gün 60 yaşı olan Rəhim Əliyevi də o illərdən tanıyıram. Başçılıq etdiyim şöbəyə onu ədəbi işçi vəzifəsinə qəbul etmişdilər. Yaraşıqlı, sakit, təvazökar, amma prinsipial, məsələlərə öz baxışı və münasibəti olan bir gənc idi. Elə ilk günlərdən ürəyimə yatdı.

Rəhim Bakının Ramana qəsəbəsində yaşayırdı, təbiətində şəhərin çağdaş mədəniyyəti ilə kəndin patriarxal, təmiz münasibətlərinin qəribə vəhdəti vardı. Yəni şəhər mədəniyyətinə ən yüksək səviyyədə yiyələnmiş olsa da, içində bizi doğmalaşdıran bir kəndçi saflığı və səmimiyyətini qorumuşdu.

Rəhim Abşeron kəndlərinə məxsus olan yüksək ailə tərbiyəsi almışdı, böyük-kiçik yeri bilmək, düzlük, halallıq, əyri işlərə baş qoşmamaq onun xarakterinin əsas cəhətləriydi. İllər keçib, amma o, bu keyfiyyətlərini qoruyub saxlamışdır. O vaxtdan bəri tanıdığım insanların içərisində Rəhim Əliyev aydın, işıqlı, parlaq siması ilə özəl bir yeri tutur.

Bu gün artıq Rəhim Azərbaycan filoloji elminin, tənqid və ədəbiyyatşünaslığımızın görkəmli simalarından biri, filologiya elmləri doktorudur. Namizədlik və doktorluq işlərinin adı dəqiqliyi ilə yadımda qalmayıb. Amma onun ilk sanballı kitablarından biri Cəfər Cabbarlı yaradıcılığına həsr olunan monoqrafiya idi. Kitabı görəndə ilk düşündüyüm bu oldu ki, Cabbarlı yaradıcılığını Rəhim qədər dəqiq araşdırıb təhlil edən ola bilməz. Çünki ədəbiyyata fanatik bağlılıq baxımından Rəhim öz tədqiqat obyektinə qəribə tərzdə oxşayırdı.

Sonra onunla uzun müddət görüşə bilmədik. Rəhim sovet dövrü ədəbiyyatından ayrılıb birdən-birə orta əsrlər anadilli ədəbiyyatımızın araşdırmaçısı oldu, böyük xalq yazıçımız Mirzə İbrahimovun yaratdığı Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsində işləməyə başladı və ədəbiyyat tariximiz onun qələmində bütövləşdi.

Bu aralar onun bir neçə maraqlı kitabı da çap olunub. Bəzilərini hələ ki, oxumaq imkanım olmayıb. Amma bir şeyi bilirəm ki, Rəhim nədən yazır-yazsın, yüksək elmi-nəzəri səviyyədə yazacaq. Çünki ədəbi mühitdə Rəhim nadir qələm sahiblərindəndir ki, hər sözünün yerini bilir, dərin nəzəri bazası var, ürəyindən olmayan heç nəyi yazmır. Bu baxımdan mən onun üslubunu böyük alim və ziyalımız Yaşar Qarayevin üslubu ilə müqayisə edərdim.

Əslində, Rəhim mənim yanımda ədəbi işçi işləyəndə də artıq kamil qələm sahibiydi; o, ədəbiyyat meydanında yetişmədi, bu meydana hazır gəlmişdi. Ədalətli idi və heç vaxt yaxşını pisin ayağına verməzdi. Rəhim Əliyev o tənqidçi və ədəbiyyatşünaslardandır ki, ədəbi material onlara həm də cəmiyyətin müxtəlif problemlərini üzə çıxarmaq, keçmişi bu günün aynasına çevirmək imkanı verir. Bu baxımdan onun yaradıcılığı - hekayə, esse və publisistik məqalələri də ciddi ictimai mövqedən və vətəndaş yanaşmasından yaranıb. Bizi Rəhimlə yaxınlaşdıran cəhətlərdən biri də budur.

O, siyasətlə məşğul olmur, amma siyasi həyatla bağlı son dərəcə dəqiq və orijinal baxışları var.

İllər Rəhim Əliyevin gəncliyindən mənə doğma olan portretini solğunlaşdırmadı, əksinə, gənclik illərindən başlanan dostluğumuzun təsadüfi olmadığını göstərdi. Həmin illərdə gənc Rəhim nə qədər təmkinli və müdrik idisə, bu gün də 60 yaşlı Rəhim o qədər gənc və enerjilidir. Bu vəhdət onun bir-birindən dəyərli kitablarının ədəbiyyatşünaslığımızın ən gözəl nümunələrinə çevrilməsinin səbəbidir. Və sevinirəm ki, o, ikimizin də yaxın dostu olmuş qocaman Mirzə İbrahimovun Cənubi Azərbaycan ədəbiyyatının öyrənilməsi ilə bağlı arzularını yerinə yetirir və bu yolu davam etdirir.

**Sabir RÜSTƏMXANLI**

*xalq şairi*